Respublika.- 2019.- 1 sentyabr.- S.4.

# Qubadlı rayonunun işğalından 26 il ötür

**Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikası Qubadlı rayonunun işğalının 26-cı ildönümü ilə əlaqədar avqustun 31-də tədbir keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Qubadlı Rayon İcra Hakimiyyətinin başçısı Malik İsaqov, Milli Məclisin deputatı İmamverdi İsmayılov, rayon ictimaiyyətinin, idarə, müəssisə və təşkilatların nümayəndələri, respublikanın digər qurumlarından olan qonaqlar iştirak edirdilər. Sumqayıt şəhərində yerləşən Şəhidlər Xiyabanındakı abidənin önünə əklil qoyulduqdan sonra tədbir iştirakçıları şəhidlərin məzarlarını ziyarət etdilər.



Tədbirdə Qubadlı Rayon İcra Hakimiyyətinin başçısı Malik İsaqov çıxış edərək dedi ki, bu gün Qubadlının işğalından 26 il ötür. Zəngin tarixə malik olan rayonumuzun bütün əmlakı erməni işğalçıları tərəfindən talan edilib, 1 şəhər, 93 kənd tamamilə dağıdılıb, evlər, ictimai binalar yandırılıb, salamat qalanlar isə sökülərək Ermənistana daşınıb. Qəbiristanlıqlar, tarixi-mədəni abidələr, rayon mərkəzində fəaliyyət göstərən və maraqlı eksponatlarla zəngin olan tarix-diyarşünaslıq muzeyi məhv edilib. Ümumilikdə rayona 1,5 milyard dollar ziyan dəyib.

Qubadlı rayonunun ərazisi arxeoloji cəhətdən kifayət qədər öyrənilməsə də, o zamanlar burada təkcə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin xətti ilə qorunan 50-yə yaxın abidə qeydə alınıb.

Düşmənlə mübarizədə 238 nəfər Qubadlı sakini şəhid olub. Həmçinin 473 nəfər rayon sakini əlil olub, 100 nəfərdən çox insan itkin düşüb. 11 nəfər Milli Qəhrəman adına layiq görülüb. Hazırda Qubadlının 38200 nəfərdən çox əhalisi respublikamızın 41 rayonunda məcburi köçkün həyatı yaşayır. Əhalimizin mütləq əksəriyyəti Sumqayıt şəhərində məskunlaşıb. Harada məskunlaşmağından asılı olmayaraq, rayon əhalisinin problem və çətinlikləri yerli icra strukturlarının diqqətindədir. Bu isə əsası Ulu Öndərimiz tərəfindən qoyulan və bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uğurla davam və inkişaf etdirdiyi siyasətin yerlərdə layiqincə icrasının təzahürüdür.

Rayon icra hakimiyyətinin başçısı qeyd etdi ki, 26 il ərzində torpaq həsrəti bir an da olsun əhalimizi tərk etməyib. Dövlətimiz və hökumətimiz məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması, məşğulluğunun artırılması sahəsində kompleks tədbirlər həyata keçirib. Rayon əhalisi hər zaman Azərbaycan dövlətinə sadiqdir və qəti əmindir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə doğma Qubadlıya qayıdacağımız gün uzaqda deyil. İcra başçısı dedi ki, Azərbaycan Ordusunda döyüş qabiliyyəti, mənəvi-psixoloji durum, vətənpərvərlik ruhu çox yüksəkdir. Bu gün Azərbaycan Silahlı Qüvvələrinin quruculuğu prosesi davam etdirilir və Ordumuz inkişaf, təkmilləşmə dövrünü yaşayır. 2016-cı ilin aprel ayında dördgünlük döyüş Azərbaycan Ordusunun qüdrətini bir daha sübut edərək göstərdi ki, bu Ordu nəinki ölkəmizin ərazi bütövlüyünü mənfur düşməndən qorumağa, həm də işğal olunmuş ərazilərimizi qısa müddətdə düşməndən azad etməyə qadirdir. Xüsusilə qeyd olundu ki, Aprel döyüşlərində fərqlənən rayonumuzun sakinləri Həmidov Şükür Nəriman oğluna Ali Baş Komandan İlham Əliyev tərəfindən Azərbaycan Respublikasının Milli Qəhrəmanı, Bərxudarov Mais Şükür oğluna general-mayor hərbi rütbəsi verilib, Qasımov Faiq Qaçay oğlu isə "Azərbaycan Bayrağı" ordeninə layiq görülüb. Malik İsaqov bildirdi ki, Aprel döyüşlərindən sonra hər üç həmyerlimizin yüksək təltifə layiq görülməsi rayon sakinlərinin hədsiz sevincinə səbəb olub.

Bundan başqa, 2018-ci il mayın 20-dən 27-ə qədər Naxçıvan Muxtar Respublikasında Əlahiddə Ümumqoşun Ordusunun əks-həmlə əməliyyatı nəticəsində Şərur rayonunun Günnüt kəndi, "Ağbulaq" yüksəkliyi, Qızılqaya, Qaraqaya dağı işğaldan azad olunub. Dərələyəz mahalının Arpa kəndi isə Azərbaycan Ordusunun nəzarəti altına keçib. Döyüşlər nəticəsində ümumi olaraq 11 min hektar ərazi işğaldan azad olunub. Rayon icra hakimiyyəti başçısı əminliklə bildirdi ki, torpaqlarımız tezliklə işğaldan azad olunacaq və üçrəngli bayrağımız Qarabağda dalğalanacaqdır.

Tədbirdə digər çıxış edənlər 26 il ərzində Vətən həsrəti ilə məcburi köçkün həyatı yaşayan Qubadlı sakinlərinin nümayiş etdirdikləri dözümlülüyün və dövlətə sadiqliyin örnək olduğunu bildirdilər. Bütün çətinliklərə rəğmən bu müddətdə rayon əhalisi Azərbaycanda vüsət almış quruculuq işlərində fəal iştirak ediblər.

Dövlətimizin başçısının məcburi köçkünlərə olan diqqət və qayğısının nəticəsidir ki, 2019-cu ildə Abşeron rayonunun ərazisində, Sumqayıt şəhərində, eləcə də digər şəhər və rayonlarda tikilmiş yeni şəhərciklərə Qubadlı rayonundan, ümumilikdə, 900-dən çox məcburi köçkün ailəsi köçürülüb. Bütün bunlara baxmayaraq, məcburi köçkün düşmüş soydaşlarımız inanırlar ki, tezliklə dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə öz doğma yurd-yuvalarına qayıdacaq və həmin günü qələbə günü kimi qeyd edəcəklər.

Tədbirdə təcavüzkar Ermənistana beynəlxalq güclərin yetərincə təzyiq göstərməməsinin təəssüf doğurduğu xüsusi vurğulanıb.

**AZƏRTAC**